> *Tərtər zəhmətkeşlərinin təcrübəsi digər bölgələrdə də tətbiq olunmalıdır. Çünki heç də hər bir rayonda məhsuldarlıq sizdə olduğu kimi deyil. Ona görə burada görülən aqrotexniki tədbirlər, suvarma və texnikadan istifadə ilə bağlı təcrübə gərək təhlil edilsin və məhsuldarlığı az olan rayonlara tövsiyə kimi göndərilsin.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

# TƏRTƏR: inkişaf hərtərəfli və sürətlidir

***Artıq son hektarların məhsulu yığılır. Havaların əlverişli keçməsindən istifadə edən kənd əməkçiləri böyük zəhmət hesabına yetişdirdikləri pambığı son qozasınadək toplayıb təhvil vermək əzmi ilə çalışırlar. Biz bu günlərdə Tərtər rayonunun kəndlərində olarkən, qabaqcıl fermer və kənd adamları ilə görüşərkən bir daha bunun şahidi olduq.***



Əvvəlcə Azad Qaraqoyunlu kəndində, Yasin Aslanovun rəhbərlik etdiyi fermer təsərrüfatının pambıq sahələrində olduq. Rast gəldiyimiz mənzərə maraqlı olduğu qədər də təəccüblü idi: sahənin bir tərəfində pambıq yığılırdı, o biri tərəfində isə şum aparılırdı. Y.Aslanov marağımızı görüb dedi:

– Məhsul yığımını bu gün-sabah başa çatdıracağıq. Gördüyünüz kimi, sahələr artıq barını verib. Deməli, biz indidən gələn ilin bol məhsulu barədə düşünməliyik. Ona görə də vaxt itirmədən şuma başlamışıq. Onu da deyim ki, biz gələn il pambıq əkini sahələrini xeyli genişləndirməyi qərara almışıq.

Qabaqcıl fermerin belə inam və həvəslə danışmağa haqqı var. Axı strateji məhsul olan pambıq onların düşündüklərindən də artıq qazanc gətirir. Daha dəqiq desək, pambıqçılığa olan həvəs və maraq, qabaqcıl təcrübə, müasir texnologiyanın mənimsənilməsi onunla nəticələndi ki, ümumi məhsul istehsalı əvvəlki illərlə müqayisədə 3 dəfədən çox artdı. Yasin Aslanovun fermer təsərrüfatı isə bu il hər hektarın məhsuldarlığını 38 sentnerə çatdırmışdır. O, gələcək planlarından da həvəslə danışdı:

– Düzdür, biz pambıqçılıqla həmişə məşğul olmuşuq. Ancaq etiraf edək ki, əvvəlki illərdə əkin sahələri çox az idi. Ona görə ki, bu gəlirli sahə, nədənsə, gözdən düşmüşdü, maraq azalmışdı. Çəkilən xərc özünü doğrultmurdu. Ancaq ölkə başçısının pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində əkin sahələri dəfələrlə artırıldı, maraq və həvəs yüksəldi. Digər tərəfdən, pambıqçılıq iqtisadi cəhətdən də çox əlverişlidir. Kənd əməkçisi topladığı məhsulun pulunu elə həmin gün ala bilir. Bu isə bol qazanc və firavan həyat deməkdir. Təsadüfi deyildir ki, bütövlükdə rayonumuzda olduğu kimi, bizim kənddə də pambıq əkini sahələri ildən-ilə artırılır.

Pənah Məhərrəmov da rayonun qabaqcıl fermerlərindən hesab olunur. Bu il həm əkin sahələrini xeyli genişləndirmiş, həm də yüksək məhsuldarlığa nail olmuşdur. Burda da artıq məhsul toplanışı başa çatmaq üzrədir. İşlərin gedişi, qarşıda duran hədəflər barədə danışmağı xahiş etdik:

– Builki göstəricilərimizdən razıyıq. Belə ki, hər hektarın məhsuldarlığını 38 sentnerə çatdırmışıq. Bu isə o deməkdir ki, gəlirimiz nəzərdə tutulduğundan da çoxdur. Gələn ilin məhsulu üçün əkin sahələrini xeyli artırmağı nəzərdə tutmuşuq. Bunun üçün konkret torpaq sahələri də ayrılmışdır. Düzdür, biz taxıl da əkirik, bostan-tərəvəz, şəkər çuğunduru da yetişdiririk. Ancaq əsas diqqəti pambıqçılığa yönəltmişik. Çünki bu gəlirli sahəni daha sürətli inkişaf etdirmək üçün hər cür şəraitimiz var. Üstəlik, adamlarımızda pambıqçılığa xüsusi həvəs və maraq var.

Tərtər Rayon İcra Hakimiyyətindən bizə verilən arayışda bu il ən yüksək göstəricilər əldə edən kəndlərin adları yazılıb: Azad Qaraqoyunlu, Bəyimsarov, Köçərli, Qaradağlı, Əskipara və başqaları. Əlamətdar haldır ki, onlar əvvəlki illərlə müqayisədə pambıq əkini sahələrini xeyli artırmışlar. Ümumiyyətlə, 2017-ci ilin ötən ayları ərzində rayonda kənd təsərrüfatı məhsullarının ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 52 milyon 117,5 min manat təşkil etmişdir. Onun da 32 milyon 457,2 min manatı bitkiçilik, 19 milyon 660,3 manatı heyvandarlıq sahəsinin hesabına formalaşmışdır.

Ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər rayonda strateji və ixracyönümlü məhsul olan pambıq və şəkər çuğunduru istehsalının inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində texniki bitkilərin əkini əvvəlki ilə nisbətən 2 dəfə artmışdır. Cari ildə 3123 hektarda pambıq, 1541 hektarda şəkər çuğunduru, 1637,4 hektarda günəbaxan əkilmişdir. 2016-cı ilə nisbətən pambıq əkini 3 dəfə, şəkər çuğunduru sahəsi 29,87 faiz, günəbaxan əkini 78,4 faiz artmışdır. 2017-ci ildə 843 istehsalçı ilə müqavilə bağlanmış və pambığın becərilib yığılmasında 2800 nəfər mövsümi işlərlə təmin olunmuşdur. Bu, şübhəsiz, rayon əhalisinin rifahının daha da yüksəlməsinə təkan vermişdir.



Ayrı-ayrı yerlərdə işin düzgün təşkil edilməsinin, aqrotexniki tələblərə vaxtında və keyfiyyətlə əməl olunmasının nəticəsidir ki, bu il Tərtər rayonu ümumi məhsul yığımı və hər hektarın məhsuldarlığı baxımından respublika üzrə birincilər sırasına çıxmışdır. Belə ki, bu günə kimi, 7900 ton pambıq yığılıb təhvil verilmişdir. Bu da ötən ildəkindən 7 dəfə çoxdur. Əkin sahələri də xeyli artırılmışdır. Ötən il – 1035,1 hektar, bu il isə 3123 – hektar.

Rayon iqtisadiyyatında nisbətən təzə sahə olsa da şəkər çuğunduru sürətlə inkişaf etməkdədir. Təkcə belə bir faktı xatırlatmaq yerinə düşər ki, ötən il hər hektardan əldə edilən məhsula görə Tərtər rayonu birinci yerə çıxmışdır. Kənd əməkçiləri cari ildə də yüksək göstəricilər uğrunda mübarizə aparırlar. Əkin sahələri də əvvəlki ilə nisbətən artaraq 1541 hektara çatdırılmışdır. İndiyə kimi, 54,5 min ton çuğundur toplanmışdır.



Sahələrdə isə hələ məhsul çoxdur, yığım davam edir.

Cari ilin məhsulu üçün 9507 hektarda taxıl əkilmişdir. Onun 6909 hektarı buğda, 2598 hektarı arpa olmuşdur. Taxıl zəmilərindən 34 min 579,6 ton məhsul yığılmışdır. Hər hektardan orta məhsuldarlıq buğda üzrə 38,3 sentner, arpa üzrə 31,4 sentner təşkil etmişdir. Bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. Bundan başqa, 1386 ton dən üçün qarğıdalı, 3830 ton dən üçün günəbaxan, 5459 ton kartof, 13 min 987 ton müxtəlif növ tərəvəz, 120 ton bostan bitkiləri, 17,2 ton noxud, 1624 ton meyvə və s. istehsal edilmişdir. Heyvandarlığın inkişafını təmin etmək üçün yonca sahələrindən 94 min 895 ton, yem üçün sorqo sahələrindən 310 ton quru ot yığılmışdır. “Aqrolizinq” ASC güzəştli şərtlərlə istehsalçılara 1677 ton mineral gübrə satmışdır.

Ötən illərdə olduğu kimi, cari ildə də rayonda heyvandarlığın inkişaf etdirilməsi və məhsuldarlığın artırılması üçün işlər diqqət mərkəzində saxlanılmışdır. Hazırda rayonda 27,1 min başdan çox iri mal, 70,6 min başa qədər davar vardır. İri malın sayı ötən ilin müvafiq dövrünə nisbətən 474 baş çoxalmışdır. Cari ilin ötən ayları ərzində 2134 ton diri çəkidə ət, 15,3 min ton süd, 7 milyon 670 min ədəd yumurta, 125 ton yun istehsal olunmuşdur. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 15,1 faiz, yumurta istehsalı 2,3 faiz, yun istehsalı 5,3 faiz artmışdır.






Biz kənd təsərrüfatı sahəsində əldə edilmiş uğurlar barədə qısa da olsa məlumat verdik. Yeri gəlmişkən, qeyd edək ki, sənaye məhsulları istehsalı da dinamik inkişaf etmiş, tikinti-quruculuq və abadlıq işləri geniş vüsət almışdır.

Belə ki, son illər Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət, xüsusən regional inkişaf proqramlarının icrası Tərtərin simasını əsaslı dəyişdirmişdir. Tərtər şəhərində ümumi sahəsi 1200 kvadratmetr olan ikimərtəbəli, müasir üslubda tarix-diyarşünaslıq muzeyi tikilmişdir. Hazırda binanın daxilində dizyan və tərtibat işləri aparılır.

Tərtər çayı sahilində 5 hektar ərazidə yeni park salınması işləri davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, 18 çoxmənzilli yaşayış binasının təmiri ilə bağlı Tərtər Rayon İcra Hakimiyyətinə 691 min manat vəsait ayrılmışdır. Bu işləri görmək üçün aylıq əmək haqqı 200 manat olmaqla, 100 nəfər Tərtər sakini 12 ay müddətinə işlə təmin olunmuşdur. 2017-ci ilin yanvar ayından çoxmənzilli yaşayış binasının təmiri işlərinə başlanmışdır. Şəhərin Ə.Paşayev və N.Nərimanov küçələrində 18 ədəd çoxmənzilli yaşayış binalarının fasad, giriş və blok hissələri, o cümlədən dam örtükləri qurulmuşdur. Bundan başqa, Tərtər şəhərində çoxmənzilli yaşayış binalarının əsaslı təmiri məqsədilə rayon icra hakimiyyətinə 3 milyon manat vəsait ayrılmışdır. Həmin vəsait hesabına 24 çoxmənzilli yaşayış binasının əsaslı təmirinə başlanılmışdır. Binaların dam örtükləri sökülüb yenidən vurulmuşdur. Hazırda fasad, giriş və blok hissələrində suvarma və rəngsaz işləri aparılır.

Rayonda 1170 məcburi köçkün ailəsi üçün yeni qəsəbənin tikintisi başa çatmışdır. Şıxarx qəsəbəsində, Həsənqaya və Çaylı kəndlərində məskunlaşmış 78 məcburi köçkün ailəsinə yaşadıqları həyətlərdə fərdi yaşayış evləri tikilmişdir. Şıxarx qəsəbəsi ərazisində “Marağa-150” tarixi abidə kompleksinin ətrafında abadlıq işləri aparılmışdır. Tərtər-Şıxarx avtomobil yolunun sağ və sol tərəflərində yaşıllıq zolaqları salınmışdır.

24 min nəfər əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən Tərtər-Seyidimli-Qaradağlı-Sarov avtomobil yolunun tikintisi başa çatmışdır. Həmin yolun 18-ci kilometrində, İncə çayı üzərində yerləşən qəzalı vəziyyətdə olan körpü yenidən tikilib istifadəyə verilmişdir.

Prezident İlham Əliyev noyabr ayının 28-də Tərtər rayonuna tarixi səfəri çərçivəsində Tərtər Tarix-Diyarşunaslıq Müzeyinin, Tərtər-Seyidimli-Qaradağlı-Sarov avtomobil yolunun açılışında iştirak etmişdir. Dövlət başçısı 1170 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi ilə, “N” saylı hərbi hissədə yaradılan şəraitlə də tanış olmuş və tərtərlilər qarşısında çıxış etmişdir. Həmin tarixi səfər, keçirilən görüş və söhbətlər tərtərlilərin qurub-yaratmaq əzmini birə-beş artırmış, böyük ruh yüksəkliyinə səbəb olmuş, onların sabaha olan inam və ümidlərini artırmışdır. Ölkə Prezidenti son illər Tərtərdə görülmüş işlərə yüksək qiymət verərək demişdir: “Düzdür, indi plan yoxdur, ancaq hədəf var. Çox şadam ki, Tərtər o hədəfə artıqlaması ilə çatıb. Tərtər hədəfi, təqribən, 25 faiz səviyyəsində üstələdi. Bu, çox sevindirici haldır. Kənd təsərrüfatının digər sahələrində də yaxşı nəticələr var.

Bir sözlə, bu gün Tərtər rayonu uğurlu inkişaf edir. Sosial-iqtisadi inkişaf göz qabağındadır. Düşmənlə üz-üzə dayanan tərtərlilər həmişə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində xüsusi rol oynamışlar”.

Bəli, Tərtərdə inkişaf və yüksəliş dinamik, ardıcıl və sistemli xarakter daşıyır. Rayonda iqtisadi, sosial və mədəni sahələrin inkişafına kompleks münasibət mövcuddur. İş üslubu və metodları, təşkilat-idarəetmə məsələləri, icra intizamı daim diqqət mərkəzindədir.

*Ziyəddin SULTANOV,*
*“Xalq qəzeti”nin*
*bölgə müxbiri*